# UNUDULMAZ İNSAN, GÖRKƏMLİ ALİM

## *(Ekoloq alim Əli Abdullayevin əziz xatirəsinə)*

Tatar xalqının böyük şairi Musa Cəlil yazırdı: "Gərək, elə yaşayasan ki, öləndən sonra da yaşaya biləsən". İlk baxışdan çox sadə səslənən bu fikir böyük mənalar kəsb edir. Bu, insanın öz ağlı, zəhməti, xeyirxahlığı, ən başlıcası da xalqına, dövlətinə sədaqətlə, böyük sevgiylə xidmət etməsinin ifadəsi, həyat düsturudur. Doğrudan da, fiziki yoxluğundan sonra bu dünyada insandan qalan bircə nişanə var: yaxşı, ad...

Görkəmli ekoloq alim Əli İzzət oğlu Abdullayevin ömür yolu ilə tanış olduqca, böyük çətinliklər yaşamış, ağır sınaqlardan çıxmış alimin həyatı, yaxın-uzaq illərin arxasından çox aydın görünür. Bu ömür bütünlükdə fəal çalışmalar, elmi axtarışlar, bir sözlə, xalqına, dövlətinə verdiyi töhfələrlə zəngindir. İstehsalatdan başlamış elmin geniş üfüqlərində işıq kimi görünən bu insanın həyatdakı bütün uğurları özünün zəhməti, çalışqanlığı, axtarışları sayəsində qazanılmışdır.

Onun tərcümeyi-halı, ömrün müdriklik çağında qələmə aldığı xatirələri bizə bu insanın keçdiyi həyat yolu haqqında bitkin bir məlumat verir. Əli müəllim öz xatirələrində yazırdı: "Orta məktəbə getdiyim ilk illərdə müharibə başladı. Mən evdə ailəmizə kömək etməklə yanaşı, dərslərimdən geri qalmırdım, gecə-gündüz çalışır, əla qiymətlərlə oxuyurdum. Yuxarı siniflərdə artıq tanınırdım. Yaxşı oxuduğuma, nümunəvi şagird olduğuma görə məktəb komsomol təşkilatına rəhbərlik etməyi mənə tapşırmışdılar. Mən yaxşı oxumaqla yanaşı, müəllimlərimin ən yaxın köməkçisi idim. O zamanlar respublika miqyasında tanınan Kəriş Köçərli, Əziz Yeqanlı kimi müəllimlərdən əla qiymətlər almaq hər bir kəs üçün fəxr idi...".

Tərcümeyi-halının ilkin sətirlərinin ardınca Əli Abdullayevin ömürlüyünə onun məhsuldarlıqla zəngin olan səhifələr yazılmağa başladı. O, hər yerdə özünün çalışqanlığı, biliyi, zəhmətsevərliyi ilə başqalarından fərqlənirdi. Ali məktəbdə təhsil aldığı illərdə də onun bütün fəaliyyəti nümunəviliklə müşayiət olunurdu. 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun fəal tələbəsi olan gənc Əli 16 min tələbə kontingenti olan bu nəhəng təhsil ocağında komsomol komitəsinin 11 nəfərdən ibarət büro üzvlərindən biri olur. Gənc olmasına baxmayaraq, hələ o zaman bizim ürəkaçıqlığımızdan, istiqanlı olmağımızdan məharətlə faydalanan, xəyanətkarlıqlarını ustalıqla həyata keçirən erməni millətçilərinin qısqanclığını duyur, hiss edirdi. O, xatırlayırdı ki, klassik güləşlə ciddi məşğul olduğumdan dörd dəfə dalbadal respublika çempionu olmuşdum. Bir çox yarışlarda hakimlik də etmişdim. İnstitutun şərəf lövhəsində böyük portretim də asılmışdı. Bu, erməni millətindən olan müəllimlərin qısqanclığına səbəb olmuşdu. Bir neçə dəfə mənə eşitdirmişdilər ki, burada mühəndis hazırlanır, idmançısan, zəhmət çək, get Bədən Tərbiyəsi İnstitutunda oxu. Dəfələrlə qiymətlərimi aşağı salmışdılar...

İnstitutu müvəffəqiyyətlə bitirən Əli Abdullayev işləmək üçün təyinatla Neft Daşlarına göndərilir. O, istehsalatda bütün çətinliklərə qatlaşmaqla böyük təcrübə toplayır və bunun müqabilində də operatorluqdan mədən müdiriyinə qədər ucalır. Genişəhatəli iş prosesində o, tədqiqatlarla məşğul olur, bu da gənc mütəxəssisi elmə meyilləndirirdi. Gənc tədqiqatçı işlənməmiş sahədən yazdığı dissertasiyasını müdafiə etməklə, elmdə yeni bir səhifə açmaqla məlum olmayan lay daxili hidrodinamik hadisələri aşkarlayaraq bir çox məşhur alimlərin nəzəriyyələrini şübhə altında qoyur.

Əli Abdullayev istehsalatda çalışmaqla yanaşı, respublikanın ictimai həyatında da yaxından iştirak edir, gənclər təşkilatında büro üzvü seçilir. Həmin dövrdə dissertasiya yazmaqla məşğul olan Əli müəllimə Azərbaycan SSR Nazirlər Sovetinin Partiya Dövlət Nəzarət Komitəsinin sədri Əli Kərimovdan komitədə işləmək təklifi alsa da, bu işdən imtina edir. Lakin bir müddətdən sonra yeni təklif alır, AKP Mərkəzi Komitəsi bürosunun sənaye üzrə heyətinin 22 fevral 1963-cü il tarixli qərarı ilə Xalq Nəzarəti Komitəsinə inspektor vəzifəsinə təyin edilir.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər təyin edildikdən sonra MK-da və yerlərdə ciddi kadr dəyişiklikləri aparıldı. Hamımıza yaxşı məlumdur ki, o vaxtlar ulu öndər bütün sahələrdə kadr siyasətində olduqca dürüst, dəqiq seçimlər edir, bacarıqlı işçiləri irəli çəkərək onlara etimad göstərirdi. Bu mənada Əli Abdullayevi yaxından tanıyan və onun ağlına, zəkasına, biliyinə inanan Heydər Əliyev bu şəxsin bacarıqlı, vicdanlı kadr kimi irəli çəkilməsini dövlətçiliyimizin inkişafı üçün vacib bilmişdi. O zaman Əli müəllimin bütün fəaliyyəti dövlət başçısının nəzər-diqqətində idi. Odur ki, Xalq Nəzarəti Komitəsində irəli çəkilən zaman Heydər Əliyevin qəbulunda olmuş, dövlət başçısı onunla ciddi söhbət aparmış, tapşırıqlarını vermiş, eyni zamanda ona inandığını bildirmişdir. Təbii ki, bu, Əli müəllimə işləmək üçün böyük stimul vermiş, məsuliyyətini artırmışdır. O, respublikada gedən bütün ictimai-siyasi həyatın içərisində olmuşdu. Yeri gəlmişkən, bütün həyatı boyu dövlət başçısının ona bəslədiyi etimadı doğrultmuş, Heydər Əliyevin şəxsiyyətinə, böyüklüyünə qəlbində ehtiram bəsləmişdir. Bu ehtiramın əməli nişanəsi olaraq 2007-ci ildə nəşr etdirdiyi "Dəniz neft-qaz istehsalında ətraf mühitin mühafizəsi" adlı irihəcmli, sanballı monoqrafiyasını Heydər Əliyevin əziz xatirəsinə ithaf etmişdir.

Hələ o zamanlar Azərbaycanda hazırlıqlı, layiqli kadrların yetişməsinə həsədlə, paxıllıqla yanaşan ermənilərin qısqanclığı ilə tələbəlik illərindən rastlaşan Əli Abdullayev sonralar da onların çirkin əməllərinin şahidi olmuşdur. Ə.Abdullayev yazır: "Anastas Mikoyan, marşal Xristofor Baqramyan Moskvada, Paşa Aruşanov, Armik Karamyan Bakıda xalqımızın əleyhinə gizli işlər görürdülər. Respublikamızın inkişafına əngəllər törətmək istəyən bu daşnak tör-töküntülərini yerində oturtmaq lazım idi. Odur ki, "Azneftgeofizika" dövlət trestini yoxlama planına saldırdım. Trestin rəisi Sergey Abramyan yoxlamalardan sonra ifşa edildi. Məlum oldu ki, ermənilər hər vəchlə, müxtəlif yollarla respublikanın neftçıxarma sənayesinin inkişafının süni ləngidilməsinə çalışmışlar".

Xalq Nəzarəti Komitəsinə ömrünün ən səmərəli illərinin 28 ilini vermiş Əli Abdullayev bu işlərə bütün bacarığını, təcrübəsini sərf etmişdir. Ədaləti, düzlüyü, xalqına sədaqətlə xidmət etməyi həyatının amalı hesab etmişdir. İşlədiyi sahənin dövlətçiliyimizin qorunmasında və xalqın taleyində necə böyük əhəmiyyət daşıdığını ulu öndərin bu sahəyə münasibətində daha aydın dərk edirdi. O, öz xatirələrində Heydər Əliyevin 13 iyul 1980-ci ildəki çıxışını da unutmamışdır. O, yazırdı: "Xalq nəzarəti orqanlarının fəaliyyəti haqqında ictimaiyyət rəyinin böyük əhəmiyyəti vardır. Sizə böyük hüquqlar, böyük səlahiyyətlər verilmişdir və bunlar sizi digər nazirliklərdən, baş idarələrdən fərqləndirir. Siz yoxlayır, nəzarət edirsiniz, sizin müəssisələri cəzalandırmaq, işdən kənar etmək hüququnuz vardır. Deməli, hamı sizə xüsusi diqqətlə, xüsusi maraqla yanaşır və əlbəttə, öz işinizdə nəzarət etdiyiniz və yoxladığınız adamlara ən yaxşı nümunə göstərməlisiniz".

"Dənizneftqazlayihə" İnstitutunda 17 il çalışmış bu zəhmətkeş alim işlədiyi sahəni beynəlxalq səviyyəyə çatdırmaq, neft ekologiyası məktəbini yaratmaq, dəniz neftqaz yataqlarının işlənməsinə aid 350-dən çox layihələr tərtib etməklə də adıçəkilən sahəyə verdiyi töhfəsinin ölkəmizə necə böyük dəyərlər qazandırdığının fərqindəyik. Bunları da xatırlatmaq yerinə düşər ki, "Azəri", "Günəşli", "Çıraq", "Şahdəniz", "Kəpəz" neft-qaz yataqlarının mənimsənilməsi və abadlaşdırılmasına aid ilk dəfə hazırladığı Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi layihəsinin mexanizmindən aparıcı neft şirkətləri öz layihələrində istifadə etmişlər. Bundan əlavə, icad etdiyi lay sularının ekoloji zərərsizləşdirmə üsulu patentləşdirildi. Lay sularının tərkibində külli miqdarda sulfat reduksiyaedici bakteriyaların olması metalın korroziyasını sürətləndirir, on tonlarla metalın yeyilməsinə gətirib çıxarırdı. Aparıcı dövlətlər yüz ildən bəri idi ki, buna çıxış yolu tapa bilməmişdilər. Neft sahəsində onun ixtirası dünyada ilk dəfə Xəzər sularında tətbiq edilmişdir. Yenə xatirələri vərəqləyirik:

"Azəri" neft yatağı üçün tərtib etdiyim ƏMTQ ekoloji layihə 1992-ci il sentyabrın 26-da ABŞ-ın "AMOKO" neft şirkəti tərəfindən 400 min ABŞ dolları həcmində qiymətləndirilmiş və ARDNŞ-ə ödənilmişdir. 15 il müddətində ABƏŞ-də ekoloji alt komitə və işçi qrupların yaradılması təklifinin müəllifi, həmin qurumun rəhbəri kimi önəmli işlər gördüm. 350-dən çox ekoloji, texnoloji beynəlxalq layihələrin nöqsanlarının düzəldilməsinə nail oldum. Baxılan strateji layihələr içərisində "Azəri", "Günəşli", "Çıraq", "Şahdəniz", "İnam" perspektivli neft-qaz yataqlarının mənimsənilməsi və abadlaşdırılması, "Bakı-Tbilisi-Ceyhan" ixrac neft kəməri, "Bakı-Tbilisi-Ərzurum" ixrac qaz kəməri, "Bakı-Supsa", "Bakı-Novoroysk" ixrac neft kəməri, Səngəçal terminalı və başqa uğurlu layihələr həyata keçirildi. 1966-cı və 2006-cı illərdə ABƏŞ-in ekoloji siyasətində əyintilər başlayanda mən buna öz kəskin etirazımı bildirdim... Müsbət fikirlər və əhəmiyyətli işlərə görə 2003, 2008-ci illərdə BP təşkilatı mənə minnətdarlıq dolu təbrik məktubu və sertifikat təqdim etmişdir".



Əli Abdullayev pedaqoji fəaliyyətlə məşğul olduğu vaxtlarda beynəlxalq İqtisadiyyat, Ekologiya Akademiyasının professoru diplomuna layiq görülmüş, çoxsaylı elmi şuraların üzvü seçilmiş, həmçinin Milli Elmlər Akademiyasının Ekoloji şurasının Dəniz Neft Qaz Layihə İnstitutunun elmi şurasının, Azneft İstehsalat Birliyinin Ekoloji şurasının üzvü olmuşdur. Azərbaycan Dövlət Neft Akademiyası rəhbərliyinin dəvəti ilə TEMPUS bölməsində magistrlərə 5 il mühazirə oxumuşdur.

Bu gün onun keçdiyi həyat yoluna nəzər salanda bu qeyrətli, vətənpərvər, müdrik insanın çalışdığı bütün sahələrdə özünəinamı ilə qazandığı uğurlarının şahidi oluruq. Əli Abdullayev hələ gənclik çağlarından, istehsalata qədəm qoyduğu vaxtlardan iqtisadi-mədəni, ictimai-siyasi, elmi mühitin mərkəzində olmuşdur. Böyük potensiala, yüksək erudisiyaya malik kadr kimi ölkənin, xalqın həyatında misilsiz işlər görmüşdür. Sözümüzün əvvəlində tatar şairi Musa Cəlildən iqtibas etdiyimiz fikri Əli Abdullayevin yaşadığı ömrə şamil etmək doğru olar. Doğrudan da, o, elə yaşadı ki, bu gün fiziki yoxluğundan sonra da xalqa və dövlətçiliyimizə təmənnasız xidmətləri onu yaşadır. İstedadlı, ləyaqətli vətəndaş, müdrik insan Əli İzzət oğlu Abdullayev vətənpərvərliyi, elmə gətirdiyi yenilikləri, ixtiraları ilə daim xatırlanacaq. Deməli, mənəvi həyat davam edir...

**Şəfəq NASİR,**
**"Respublika".**